BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ
№2 Sosial-siyasi elmlər seriyası 2015

# FƏLSƏFƏ

UOT 101.1

## SOSİAL İDRAKDA DƏYƏRLƏRİN ROLUNA DAİR

**Z.C.HACIYEV**
***Bakı Dövlət Universiteti***
***zh1940@mail.ru***

*Məqalədə sosial idrakda dəyərlərin artmaqda olan rolunu şərtləndirən amillər və səbəblər araşdırılır. Dəyərlərin sosial-idraki fəaliyyətin bütün mərhələlərində mühüm təsiri təhlil olunur, bu təsirin məzmununun müsbət və mənfi istiqamətdə ola biləcəyi vurğulanır.*

*Dəyərlərin təssirinin dövrün sosial şəraiti, sosiomədəni amillərdən və onların öz məzmunundan asılı olaraq konkret-tarixi xarakter daşıdığı qeyd olunur. Bununla əlaqədar milli müstəqillik dövründə həyata keçirilən transformasiya proseslərinin müasir sosial idraka dəyərlərin müsbət təsir göstərməsi imkanları tədqiq edilir.*

**Açar sözlər:** sosial idrak dəyərlər, sosial idraka dəyərlərin pozitiv və neqativ təsiri, müasir sosial idrakda dəyərlərin rolundakı dəyişikliklər

Fəlsəfi-aksioloji ədəbiyyatda belə bir fikir geniş yayılmışdır ki, dəyər dedikdə hadisə və proseslərin eksiztensual mövcudluğu və təbiəti deyil, onların ictimai həyatda və sosial tərəqqidə oynadığı müsbət rolu başa düşülür (hərçənd neqativ funksiya da yerinə yetirən və mənfi rol oynayan obyektləri də dəyərlərə daxil edən baxışlar da vardır).

Dəyərlər insanın subyektivliyinin təmərkuzləşmiş ifadəsi olmaqla, özündə şəxsiyyətin dünyagörüşünü intellektual, emosional və qeyri-şüuri tərəflərini vahid bir təməl üzərində birləşdirir. Subyektin malik olduğu etik, siyasi, estetik və sair dəyərlər və onların əsasında verdiyi qiymətləndirmə, onun sosial mövqeyini və idrakı oriyentasiyasını formalaşdırır.

Öz daxili məzmunu etibarilə son dərəcə mürəkkəb xarakter daşıyan dəyərlər sistemində insanın mənəvi mahiyyəti ilə bilavasitə bağlı olan subyekt dəyərləri dominant yer tutur. Burada tədqiqatçının fəaliyyətinin normativ tələbləri, məqsədi, prinsipləri, fəzilət və qəbahət haqqında təsəvvürləri, idealı ilə bağlı məsələlər ifadə olunur. Dəyərlərin ümumi səciyyəsini verərkən, onların məzmununda obyektiv və subyektiv tərəflərin ayrılmaz vəhdətdə və

çulqalaşmış vəziyyətdə çıxış etdiyi xüsusi vurğulanmalıdır. Birinci tərəf heç də o demək deyildir ki, dəyərlər real predmetlərdə və hadisələrdə mövcuddur. Bu keyfiyyət onda ifadə olunur ki, dəyərlər təkcə müvafiq obyektləri əks etdirməklə məhdudlaşmır, həm də mövcud cəmiyyətin sosial şəraiti və sosial mədəni amillərinin təsiri altında formalaşır. Buna görə də onları sırf subyektiv hesab etmək, yəni subyektin qiymətləndirməsi psixiki yaşantıları kimi qələmə vermək doğru deyildir. Dəyərlərin bu ikili təbiəti (obyektiv və subyektivin ayrılmaz əlaqəliliyi) üzündən onları doğru olaraq dispozisiya xarakterli hesab edirlər (1, 289).

Təbii elmi idrak kimi, sosial dərk etmə də öyrənilən hadisələrin və proseslərin mahiyyətini açan obyektiv həqiqi bilik əldə etməyə yönəlir. Lakin burada subyektin öyrəndiyi obyektə dəyərləndirici-qiymətləndirici münasibəti öz mahiyyətinə görə onun koqnitiv münasibətlərindən ciddi surətdə fərqlənir. Belə ki, sonuncu halda obyekt malik olduğu təbii ölçüləri çərçivəsində, lakin dərk edən subyektin abstraksiyasında araşdırılır. Qiymətləndirici-dəyərləndirici münasibət isə subyektin sosial mövqeyi, dünyagörüşü və maraqları, habelə onun əhvalı və emosiyaları ilə sıx bağlı olur. Sosial reallığın bu və ya digər tərəfinə dair yeni bilik qazanmağa çalışan tədqiqatçı, öyrəndiyi obyektə öz tələbatları və mənafeləri, mənəvi ehtiyacları, dəyərlər oriyentasiyası mövqeyindən yanaşır və araşdırır. Onlar subyektin elmi yaradıcılığının və iradəsinin ayrılmaz tərəfi kimi özünü göstərir. Beləliklə də, subyektin tədqiq etdiyi obyektə spesifik münasibəti formalaşdırır. O, sözün müəyyən mənasında dərk etmə prosesində özünün tələblərini irəli sürüb, reallaşdırmağa çalışır. Şəxsi yaşantıları və emosiyaları isə idrakda fəal iştirak edir. Nəticədə tədqiqatçı öyrəndiyi obyektə daha yaxın olur və onunla sanki qovuşur. Bu məqam həm də sosial fəaliyyətin nəticələrinin təfəkkür formaları vasitəsilə (anlayış, hökm və əqli nəticə) ifadə olunmasında aşkara çıxır.

Sosial idrakda da tətbiq olunan tədqiqat metodları, məntiqi prosedurlara və qaydalar ümumilikdə elmi standartlar və tələblərə müvafiq surətdə müəyyənləşdirilir. Bununla yanaşı, sosial dərketmə prosesində tədqiqatçının şəxsi maraqları, dəyərləri və ideyaları böyük rol oynadığı üçün, burada subyektin həqiqət axtarışına yönələn idrakı fəaliyyəti onların güclü təsiri ilə tənzim edilir (5, 210).

Sosial idrakın bilavasitə məqsədyönlü xarakter daşıması, subyektin fəaliyyətini, davranış və hərəkətlərini dəyərləri mövqeyindən nizama salır və ideala doğru istiqamətləndirir. Təbii idrak prosesində işə məqsədəuyğunluluq bu qədər sıx bağlı çıxış etmir. Odur ki, burada dəyərlərin təsiri azdır. O, demək olar ki, neytral xarakter daşıyır.

Təbiət elmlərindən fərqli olaraq sosial-humanitar bilikdə eyni bir hadisə və ya prosesin ayrı-ayrı tədqiqatçılar tərəfindən müxtəlif surətdə interpretasiyasız dəyərləndirilməsi və qiymətləndirilməsinin mühüm bir səbəbi fikrimizcə bundadır.

Təbiətdə olduğu kimi, sosial həyatda hadisələr və proseslər öz-özlüyündə

dəyər statusu kəsb etmir, onlar yalnız subyektin qiymətləndirici münasibəti obyektinə çevrildikdə, bu keyfiyyətə malik olurlar. Sosial sistemdə və onun hər bir ünsüründə dəyərlilik potensial vəziyyətdə çıxış edir, onlara insanların maraq və mənafeləri yönəldikdə aktual forma alır. Bu fikir sosial varlığı dərindən araşdırmağa cəhd göstərən idrak subyektinin fəaliyyətinə münasibətdə daha aydın və əyani surətdə özünü göstərir. Onun araşdırdığı obyektə dəyərləndirici münasibəti şüurlu-iradi ustanovkaları ilə sıx bağlı olub, tədqiqata güclü (müsbət və ya mənfi istiqamətli) təsir edir (10, 305).

Bu hər şeydən əvvəl onunla şərtlənir ki, sosial idrakı fəaliyyət özünün yaradıcı xarakteri proqram və standartlarla məhdudlaşmayan yenilikçi, açıq sistem olması ilə səciyyələnir. Bu sistem insanların real praktikası, maddi, siyasi və mənəvi, mədəni, fəaliyyəti ilə ayrılmaz surətdə bağlıdır. Buna görə də sosial həyatın idrakı inikası yuxarıda qeyd olunan sahələrdə mövcud olan qaydaların, normativ tələblərin və dəyərlərin daha güclü təsirinə məruz qalır. Digər tərəfdən, sosial idrakın məzmunu müxtəlif dövrlərdə bir-birindən ciddi surətdə fərqlənir. Çünki burada obyektiv bilik ilə yanaşı aid olduğu dövrün sosiomdənı amilləri və dəyərləri yüksək xüsusi çəkiyə malikdir. Nəhayət sosial idrakda dəyərlərin fəal rolu, burada həqiqətin dəyişkənliyi və dinamizmi ilə izah edilməlidir. Sosial həqiqətin sözügedən keyfiyyəti, onun məzmununda obyektiv tərəflər ilə yanaşı, subyektin sosial mövqeyi, dünyagörüşü və dəyərlərini ifadə edən məqamların təsir dairəsini genişləndirir. Təbii elmi idrak ilə müqayisədə sosial bilikdə sözü gedən amillər o qədər güclü rol oynayır ki, burada həqiqət faktiki olaraq iki istiqaməti (elmi-koqnitiv və dünyagörüşü dəyərləndirici) əhatə edir. Əlbəttə sosial idrakda da həqiqət öz obyektivliyi ilə səciyyələnir. Lakin onu hərfi mənada anlamaq doğru deyildir. Burda nisbilik, dərk edən subyektin təsiri böyük olduğundan, həmin keyfiyyət müəyyən qədər şərti, nisbi və qeyd şərtli xarakter daşıyır. Həm də həqiqətin qeyd olunan "subyektivizmi" təkcə bu və ya digər fərdə münasibətdə deyil, sosial qruplarda və bütövlükdə cəmiyyət miqyasında özünü göstərir (6, 81).

Bu onunla şərtlənir ki, sosial-humanitar elmlər sahəsində çalışan tədqiqatçıların fərdi maraqları və dəyərləri ilə yanaşı, onun mənsub olduğu sosial qrupun, millətin və ümumdövlətin bu qəbildən olan göstəriciləri də dərketməyə güclü təsir göstərir. Qeyd olunan miqyaslar üzrə təsirin dairəsi nə qədər geniş olursa, burada obyektiv həqiqətin aşkara çıxarılması da, bu o dərəcədə çətinləşir. Bu vəziyyət həm də aşağıdakı məqam ilə bağlıdır. Təbii idrakda yaradılan elmi həqiqətləri dəqiq izah etmək, onun konkret parametrlərini əyani surətdə göstərmək mümkündür. Sosial idrakda isə həqiqət şərti xarakter daşıyır, həm də onu əyani nümayiş etdirmək o qədər də asan məsələ deyildir. Digər tərəfdən, təbii elmi idrakda həqiqət üzə çıxarıldıqdan sonra, o demək olar ki, hamı tərəfindən qəbul olunur. Sosial idraka həqiqətən bu cür birmənalı tanınması yoxdur. Burada daim müəyyən fikir ayrılıqları, həqiqətin çoxvariasiyalılığı özünü göstərir. Qeyd olunan cəhət də sosial idrakda dəyərlərin özünəməxsus roluna müəyyən qida verən amildir (ən azı həqiqətin

yayılması və qiymətləndirilməsi səpgisində).

Deyilənlərə əlavə olaraq bu da göstərilməlidir ki, sosial həqiqətin özündə ontolofi və praksioloji səpki ilə yanaşı aksioloji dəyər səpkisi də çox mühüm yer tutur. Bu səpki onun mənəvi-əxlaqi keyfiyyətlər, doğruculluq, həyatın mənası, xeyirxahlıq, şərəf, ədalət, habelə digər dəyərlər ilə ayrılmaz əlaqəliliyini ifadə edir. Bu mənada obyektiv həqiqətdə koqnitiv ilə mənəvi tərəflər sıx qarşılıqlı təsir vəziyyətində olur. Sosial idrak inkişaf etdikcə yeni-yeni həqiqətlər aşkara çıxır. Insanlar onlardan agah olur və öz fəaliyyətində istifadə edirlər. Sözügedən proses öz mahiyyətinə görə cəmiyyətdə fəzilətin, ümumi xeyirxahlıq dəyərinin və insanların azadlıq hüdudlarının genişlənməsi ilə müşayiət olunur.

Sosial idrakda dəyər ilə elmiliyin yaxınlığı bütövlükdə mütərəqqi xarakter daşıyır. Bunu ondan görmək olar ki, dəyərlər sosial idrak və onun nəticələrinin cəmiyyət üçün faydalı və əhəmiyyətliliyini vurğulayır. Bununla yanaşı, həm də sosial biliyə normativ xarakter verir, burada real olan ilə olmalı olanın əlaqəsini təmin edir. Bu, dəyər şüurunun aşağıdakı xüsusiyyətindən irəli gəlir. “O, varlığın real və arzu olunan, mövcud olan və olmalı olan tərəflərinin qovuşuğunda yerləşir” (6, 177).

Qeyd etmək lazımdır ki. sosial idrakı dəyərlərin və dəyərlər oriyentasiyasının mühüm rolu onun bu və ya digər ayrıca mərhələsində deyil, bütövlükdə bu prosesin əvvəlindən axıra qədər fəal surətdə özünü göstərir. Dəyərlər hər şeydən əvvəl tədqiqat obyektinin və probleminin düzgün seçilməsində əhəmiyyətli yer tutur. Subyekt evristik məna və əhəmiyyət kəsb edən problemlər içərisindən birinci növbədə ona yaxın olanı, maraqlarına uyğun gələni, dəyərlərinə müvafiq hesab etdiyini seçir. Doğrudur, bu işdə tədqiqatçının konkret dəyərlər sistemi ilə yanaşı onun ümumi humanist məqsədləri və həyatının amalının ictimai və elmi tərəqqiyə xidmət etməsi əhəmiyyətli yer tutur. Lakin bu fakt heç də onun elmi axtarışlar istiqamətini müəyyənləşdirərkən özü üçün faydalı və qiymətli olana üstünlük verməsini istisna edmir.

Sonra dəyərlər elmi təhlilin konkret istiqamətlərinin müəyyənləşdirilməsində, müvafiq informasiyanın toplanmasında çox mühüm yer tutur. Tədqiqatın metodologiyasının metodları və vasitələrinin, üsul və priyomlarının, biliyin təşkili formalarının işlənib hazırlanması da dəyərlərdən kənarda baş vermir. Bu əməliyyatlar elmdaxili dəyərlərin bilavasitə təsirini əks etdirir. Nəhayət, dəyərlər sosial idrakın sonunda, yəni onun nəticələrinin bilavasitə formulə olunmasında və geniş kütlələrə çatdırılmasında əvəzsiz rol oynayır (11, 39).

Ümumilikdə götürdükdə sosial idrakın hər bir mərhələsində əldə olunan nailiyyətlər, özünün həqiqiliyi, yəni obyekti adekvat əks etdirməsi və yeni informasiya verməsi sayəsində cəmiyyət üçün faydalılıq, əhəmiyyət və dəyər kəsb edir.

Sosial idrak prosesinə dəyərlərin təsiri öz məzmununa görə birmənalı

olmayıb, müsbət, həm də mənfi yönümdə özünü göstərə bilir. Birinci istiqamət bunda təzahür edir ki, idrak subyektinin dəyərlər sistemi və dəyərlər oriyentasiyası elmi əsaslı, qərəzsiz və mütərəqqi məzmun daşıyarsa, onda o sosial varlığın tərəfləri və problemləri sırasında ən vacib olanları digərlərindən seçib ayırır və təhlil obyekti kimi götürür. Bundan əlavə tədqiqatın məqsəd və vəzifələrinin müəyyən olunmasına, başlıcası isə real elmi axtarışlar prosesinə, obyektiv həqiqi biliyin əldə olunmasına sürətləndirici təsir göstərir. Qeyd olunan vəziyyət o hallarda baş verir ki, tədqiqatçının fərdi mənafeyi, mənsub olduğu sosial qrupun və millətin maraqları dövrün ümumi şəraitinə, sosiomədəni mühitin və ictimai tərəqqinin tələblərinə uyğun gəlir, onlarla ziddiyyət təşkil etmir.

Bununla yanaşı, sosial idrak mürəkkəb olduğundan, onun obyektini canlı insanlar və onlar arasındakı münasibətlər təşkil etdiyindən, burada həqiqi bilik əldə etmək çətinləşir və bu prosesdə dəyərlərin rolu neqativ planda da təzahür edə bilir. Bu öz ifadəsini araşdırılacaq konkret problemin düzgün seçil-məməsində, elmi təhlilin məqsəd və vəzifələrinin təhrif edilməsində, elmi axtarış prosedurlarının səhv tətbiqində, manipulyasiya hallarının genişlənməsində, elmi həqiqətin fərdi kooperativ maraqlara qurban verilməsində, onun saxtalaşdırılmasında, gizlədilməsində, bəzən isə yalanla əvəz olunmasında tapır.

Deyilənlər bir daha sübut edir ki, sosial humanitar elmin nümayəndəsi öz obyektini öyrənərkən, sonuncuya bilavasitə aid olmayan amillərdən (qərəzlilik, mənsəbpərəstlik, hakim dairələrə qulluq göstərmək və sair) mümkün qədər kənar olmalıdır (9, 60).

Doğrudur, təbii idrakdan fərqli olaraq, sosial dərketmə prosesində dəyərlərin təsir gücünü tam neytrallaşdırmaq, demək olar ki, qeyri mümkündür. Buna görə də söhbət onların həqiqi sosial biliyin aşkara çıxarılmasına stimullaşdırıcı təsirini artırmaqdan, eyni zamanda bu prosesdə dəyərlərin neqativ rolunu minimuma endirməkdən gedir.

Sosial idrakda dəyərlərin rolunu açarkən aşağıdakı məqama da diqqət yetirilməlidir: elm həqiqətin özü qnoseoloji dəyər olsa da, bəzən digər (xüsusilə də etik) dəyərlərlə uyğun gəlməyə bilir. Daha dəqiq desək, o bəzi hallarda doğruçulluq, ədalət, milli mintalitet və sair dəyərlərlə üst-üstə düşmür, onlar ilə kəsişmə vəziyyətində olur. Bu o deməkdir ki, özü-özlüyündə epistemoloji məna yükünə malik olan sosial həqiqət müəyyən konkret vəziyyətdə doğruçulluğu deyil, yalanı üstün tuta bilir. Məsələn, ağır xəstəliyə düçar olmuş pasiyentə həkimin bu barədə həqiqəti söyləməsi, faciəli nəticələr törədə bilər. Buna görə də onun xəstəyə ürək-dirək verməsi, həqiqəti gizlədərək yalan söyləməsi məqbul hesab olunmalıdır. Çünki belə məlumat xəstədə sağalacağına inam yaradır (bəzən heç həkimin özünün də gözləmədiyi halda belə xəstəliklər sağala bilər). Buradan görünür ki, yalan-özüözlüyündə qeyri-qnoseoloji və qeyri-əxlaqi məzmun daşısa da, müəyyən hallarda xeyirxahlığa xidmət edir və deməli dəyər statusu olur (4, 97). Analoji fikri döyüş zamanı əsir düşmüş əsgərlərin düşməndən həqiqəti gizlədərək yalan söyləməsi və digər

buna bənzər məqamlar haqqında da söyləmək olar.

Sosial idrakda koqnitiv və dəyərin münasibətlərinin spesifikliyi təsadüfü olmayıb, sözügedən idrak növündən təbii elmi idrak ilə müqayisədə təzahür edən özünəməxsusluqlardan irəli gəlir. Hər şeydən əvvəl qeyd olunmalıdır ki, təbiielmi idrakda obyekt ilə subyekt bir-birindən xeyli dərəcədə aralı olduğu halda, sosial idrakda onlar qovuşmuş vəziyyətdədir. Başqa sözlə, burada idrakın həm obyektini, həm də subyektini insanlar, onların fəaliyyəti və aralarındakı münasibət təşkil edir. Bu mənada dərkedici subyektin şəxsi mənəvi keyfiyyətləri idraka daha çox təsir göstərmək imkanına malik olur. Digər tərəfdən, təbii idrakın obyekti olan təbiət yalnız maddi və kortəbii qüvvələrin məkanı kimi çıxış edir. Burada əsas səbəbiyyət və qarşılıqlı təsir əlaqələri əsas yer tutur. Sosial idrakın obyekti isə öz qarşısına müəyyən məqsədlər qoyan və onları yerinə yetirən, şüura, zəkaya və iradəyə malik insanlardır, dərketmənin nəticələri onların fəaliyyəti məhsullarıdır. Bu keyfiyyəti də onun subyektiv mənəvi yönümünü qiymətverici xassəsini artırır.

Sonra təbii idrak daha çox mövcud varlığı inikas etdirməklə məhdudlaşır. Sosial idrakda isə bununla yanaşı, olmalı olan, yəni normativ tərəf, yaradılmalı olan, arzuların həyata keçirilməsi ilə bağlı tərəf çox mühüm yer tutur. Onun qiymətləndirmə və dəyərlər ilə daha çox yaxın olması həm də bununla izah edilir.

Deyilənlərdən əlavə, sosial idrakın konkret tarixi şərtlənmiş xarakter daşıması, burada sosiomədəni mühitin təsirinin güclü olması da nəzərə alınmalıdır. Həmin mühitin ayrılmaz tərkib hissəsi kimi isə insanların malik olduğu normalar, dəyərlər və ideallar çıxış edir. Nəhayət, təbii idrakın əsas məqsədi öyrəndiyi obyektdə fəaliyyət göstərən qanunları (onlar bütünlükdə təbiət üçün ümumi olması ilə səciyyələnir) aşkara çıxarmaqdır. Sosial idrakın araşdırdığı obyektlər isə öz unikallığı və təkrarolunmazlığı ilə seçilir. Başqa sözlə, sosial reallıq onun hər bir konkret tərəfi, son dərəcə rəngarəng xarakter daşıyır. Qeyd olunan xüsusiyyət idrakın bu növlərində tətbiq olunan prosedurlarda da müəyyən müxtəlifliyi şərtləndirir. Belə ki, təbiielmi idrakda izahetmə proseduru (yəni fərdi konkret hadisələri və prosesləri ümumi qanunların təsir dairəsi çərçivəsinə daxil etmə) əsas yer tutur. Yəni burada təfəkkürün gedişi istiqaməti daha çox ümumidən xüsusiyyə və təkcəyə yönəlir. Bundan fərqli olaraq sosial idrakda anlama proseduru başlıca rol oynayır. Bu müxtəlif metodların (dialoq, şərhetmə, hiss etmə və saitin) köməyilə sosial hadisələrin və proseslərin mahiyyətini və sosiamədəni təbiətini üzə çıxarır. Sosial idrakda dəyərlərin rolu nə isə ümumi abstrakt məzmuna malik olmayıb, konkret-tarixi xarakter daşıyır. Başqa sözlə, hər bir dövrdə onun real məzmunu müəyyən spesifikliyə malik olur. Burada mövcud sosial varlığın vəziyyəti və inkişafı səviyyəsi, insanların fəaliyyəti istiqamətləri, onların nisbəti və prioritetləri əhəmiyyətli yer tutur.

Bu onlara şərtlənir ki, hər bir dövrdə yaşayan insanların bütövlükdə dünyagörüşü, şüuru və idrakı imkanları, o cümlədən dəyərlər şüuru həmin

tarixi mərhələnin praktikası, sosiomədəni amilləri ilə müəyyən olunur və onların hüdudları daxilində özünü göstərir. Bu müddəa həm də sosial idrak subyektinə xüsusilə aiddir. Ictimai humanitar elmlərin hər bir nümayəndəsi müəyyən sosial-iqtisadi, elmi, texniki və sosiomədəni mühitdə yaşayıb fəaliyyət göstərir. Deməli, onun düşüncəsi, təfəkkür stili və dəyərləri məhz bu amillərin təsiri altında formalaşır. Lakin insan təbii və sosial mühitin passiv məhsulu deyildir. Xüsusilə də söhbət intellektual zəka sahiblərindən getdikdə, bu nəzərdə tutulmalıdır. Onlar öz dövrlərinin çərçivəsi ilə məhdudlaşmayaraq ondan kənara çıxır və qabağa gedirlər. Başqa sözlə deyilsə, onlar ətrafındakı adamlardan fərqli olaraq, fəal yeniləşdirici düşüncə tərzinə və qabiliyyətinə malik olurlar. Onların əksəriyyəti yüksək elmi dünyagörüşü və zəngin mənəviyyat sahibləri olduğundan, müəyyən sosial obyekti araşdırmağa başlayarkən malik olduqları dəyərləri və ideyaları dərin təfəkkür süzgəcinən keçirir, onları saf-çürük edir və normal hesab etdiklərini əldə rəhbər tuturlar. Beləliklə, onların təfəkkürü və idrakı qabiliyyətləri özünün yenilikçi, yaradıcı bir sözlə kreativ xarakter daşıması ilə səciyyələnir (8, 97) .

Belə tədqiqatçıların ən görkəmli nümayəndələrinin, ən görkəmlilərinin idraki fəaliyyətin məhsulları sözün əsl mənasında götürülən humanist xarakterli dəyərlər sistemi və dəyərlər oriyentasiyası ilə yükləndiyi üçün, yaratdıqları yeniliklər də sosial tərəqqidə çox mühüm rol oynayırlar. Doğrudur, təbii elmi idrak sahəsində olduğu kimi, sosial idrakın da bu qəbildən olan kreativ düşüncəli nümayəndələri çox vaxt ictimaiyyət və hakim dairələr tərəfindən birmənalı qəbul olunmur, onlar müxtəlif təzyiqlərə məruz qalırlar. Lakin az və ya çox müddət keçdikdən sonra, həmin mütəfəkkürlər barəsində sosial ədalət bərpa olunur və onlar öz xalqının və ümumilikdə bəşəriyyətinin elm korifeyləri sırasında öz layiqli yerlərini tuturlar. Dəyərlərin sosial idrakda rolu və real təsir mexanizmi dövrün ideologiyasından da çox asılıdır. Hər bir dövrün hakim ideologiyası bütövlükdə sosial həyatı, o cümlədən burada gedən dərketmə proseslərini tənzimləmək məqsədi güdür. Bu, ideologiyanın öz mahiyyətindən irəli gəlir. O “böyük insan qruplarının-sosial təbəqələrin, siniflərin, peşələrin və ya bütünlükdə cəmiyyətin tələbatlarını və maraqlarını əks etdirən və göstərən idealların, məqsədlərin və dəyərlərin məcmusudur” (3, 496).

İdeologiya elmi xarakter daşıdıqda, onun dəyərlərə müsbət təsiri də çox olur. Çünki burada cəmiyyətdə mütərəqqi rol oynayan sosial qrupların əsas maraqları adekvat əks olunur. Bu isə o deməkdir ki, onun məzmununda pozitiv dəyərlər və dəyərləndirmə geniş yer tutur. Demokratiyanın və fikir plüralizminin mövcud olduğu cəmiyyətdə müxtəlif ideologiyalar yaranır və onların hər biri həqiqi və elmi olmaq iddiasındadır. Lakin yalnız ümummilli tələbatları və mənafeləri ifadə edən ideologiya daha önəmlidir. Belə ki, onda elmi həqiqilik əsas yer tutur, ictimai inkişafın qarşısında duran strateji və taktiki vəzifələr, bütövlükdə sosial tərəqqiyə xidmət edən məqsəd düzgün ifadə olunur. Belə ideologiyalarda elmi obyektivlik ilə dəyər uyğun gəlir. Çünki cəmiyyətin qarşısında duran əsas məqsəd və vəzifələrin ideoloji cəhətdən dəqiq

ifadə olunması, təkcə elmiliyi deyil, həm də ictimai baxımdan mütərəqqi əhəmiyyət kəsb edən əsl dəyəri əks etdirir. Bu baxımdan yanaşdıqda müasir cəmiyyətimizdə ümummilli status kəsb edən yeganə ideologiya – azərbaycançılıq müstəsna əhəmiyyətə malikdir.

Azərbaycançılıq ümummilli ideologiya olmaq etibarilə həm də müstəqil dövlətimiz tərəfindən onun maraqlarına cavab verən mənəvi fəaliyyət istiqaməti kimi qəbul olunur. Bu isə o deməkdir ki, dövlətin sərəncamında olan rəngarəng və çoxşaxəli təbliğat maşını, geniş əhali kütləsinə təsir göstərməyin çoxsaylı üsulları və vasitələri sistemi, bu ideologiyanın cəmiyyətdə geniş yayılmasına, dərindən kök salmasına, hər bir insanın şüuruna və hisslərinə hopdurulmasında cəhd göstərir. Bu prosesin çox mühüm əhəmiyyəti təkcə ölkə əhalisinin qarşıda duran məqsəd və vəzifələrin reallıq və həqiqət kimi anlaması və onların yerinə yetrilməsinə səfərbər etməsi ilə məhdudlaşmır. Sözügedən ideologiyanın məzmunu müxtəlif rəngarəng dəyərlər ilə zənginləşmiş olduğundan, onun geniş yayılması, eyni zamanda müvafiq dəyərlərin populyarlaşma və kütləviləşməsi meylini inkişaf etdirir. Nəticədə siyasi, əxlaqi, estetik, iqtisadi və sair dəyərlər şəbəkəsi, cəmiyyətin hər bir üzvünün varlığına hakim olur, onun fəaliyyətinə düzgün tənzimləyici göstərir. Müasir cəmiyyətdə dəyərlərin məzmununda, onun maddi və mənəvi növlərinin nisbətində çox ciddi dəyişikliklər baş verir. Ümumi şəkildə dəyərlərin yenidən mənalandırılması adlanan bu proses, onların sosial idraka təsirində də mühüm yenilikləri şərtləndirir. Sonuncular daha çox insanların fəaliyyətinin elmi-texniki və iqtisadi əsaslarının inkişafı ilə bağlıdır. Sözügedən proses öz növbəsində fəaliyyətin maddi-əşyavi və subyekt-şəxsiyyət tərəflərinin nisbətinin ikincinin xeyrinə dəyişilməsi ilə müşayiət olunur. Bu müstəvidə yanaşdıqda, postsovet ölkələrində baş verən əsaslı transformasiyalar ictimai-humanitar tədqiqatda dəyərlərin rolunda ciddi yenilikləri şərtləndirir. Sonuncuların əsas istiqamətini sosial həqiqətlərin aşkara çıxarılmasında dəyərlərin müsbət və stimullaşdırıcı təsirinin güclənməsi təşkil edir. Bununla yanaşı, müasir dövrün reallıqları sosial idrakda dəyərlərin roluna bəzən mənfi yönüm verə bilir. Bunun aydın nümunəsini bazar iqtisadi münasibətlərinin sosial həyatda və idrakda dəyərlərin nisbətində yaratdığı dəyişikliklərdə görmək olar. Hazırda bazar qanunlarının təkidi ilə yüksək gəlir əldə, etmək çoxlu qazanca nail olmaq, bəzi hallarda fəaliyyətin məqsədinə çevrilir, istehlak dəyərlərinə meyli artırır. Maddi dəyərlərə sözügedən aludəçilik fonunda əsl insanlıq keyfiyyəti ilə bilavasitə bağlı olan məvəni dəyərlərin kasadlaşması və arxa plana keçməsi meyli özünü göstərir. Bu həm də müstəqillik dövründə mülkiyyət münasibətlərinin transformasiyası, xüsusi mülkiyyətin yeri və rolunun artması ilə bağlıdır. Sözü gedən istiqamətdə baş verən dəyişikliklər özünün müvafiq ifadəsini insanların dəyər şüurunda da tapır, yəni onun əhəmiyyəti çoxalır, xüsusi mülkiyyətçilik psixologiyası güclənir.

Ümumilikdə müasir dövrdə elmi və sosial tərəqqinin sürətlənməsi, insanların mənəviyyatı və mədəniyyəti ilə bağlı ciddi problemlər yaradır.

Onların sırasında elmi-texniki inkişafın insanların mənəvi aləminə kasadlaşdırıcı təsiri, onların dəyişilməkdə olan ekosistemə uyğunlaşması ilə bağlı çətinliklər xüsusi qeyd olunmalıdır. Bunlardan əlavə həyat fəaliyyəti sahələrində bürokratlaşma və standartlaşma meyillərinin güclənməsi, kütləvi informasiya vasitələri və sosial şəbəkələrin təsiri altında insanın şəxsi siması getdikcə daha çox arxa plana keçir, bəzi hallarda isə onların tamamilə itməsi təhlükəsi yaranır. Nəticədə şəxsiyyətin özünə və cəmiyyətə münasibətdə inamsızlığı çoxalır, özgələşmə güclənir, insan ilə cəmiyyət arasında özünü göstərən mənəvi münaqişə hallarının sayı artır. Insanın yaradıcı subyekt kimi öz fəaliyyətini normal davam etdirməsi üçün müxtəlif seçimlər etməsi (sosial bilik və təşkilatlara daxil olması, siyasi və mənəvi dəyərlər seçimi, dəyərlər oriyentasiyası və sair) çətinləşir. Bütün bunlar digər amillərlə birlikdə müasir şəraitdə baş verən dəyərlərin yenidən mənalandırılması universal öz güclü təsirini göstərir, onun ziddiyyətli getməsini şərtləndirir. Sözügedən vəziyyət bir tərəfdən müasir iqtisadi, siyasi və sosial həyatda baş verən əsaslı dəyişikliklərin təsiri altında maddi, iqtisadi və istehlak xarakterli dəyərlərin əhəmiyyətinin artması ilə izaholunur. Digər tərəfdən, sivilizasiyanın və humanizmin inkişafının təkidi ilə şəxsiyyətin və cəmiyyətin həyat fəaliyyətinin əsasında duran əsas məqsəd-dəyərlərdə yönüm sürətlənir.

Yuxarıda deyilənlər, sosial idrakda dəyərlərin yerinin əbədi və dəyişməz olunduğunu daim yeniləşən və dinamik xarekterin açıb göstərir. Sözügedən keyfiyyət ümumilikdə sosial idrakın çox mühüm qanunauyğunluğunu ifadə edir.

Sosial idrak subyektinin malik olduğu dəyərlər sisteminin və dəyərlər oriyentasiyasının, bütövlükdə sosial mövqeyinin təsiri heç də həmişə bilavasitə olmur. Onların rolu çox vaxt dolayısı ilə aşkara çıxır. Dəyərlərin sözügedən prosesə birbaşa təsiri isə daha çox müvafiq sahə üzrə mövcud olan konseptual, mötəbər biliklərdə ifadə olunur.

Sosial idrakda dəyərlərin mühüm rolundan danışarkən vurğulanmalıdır ki, söhbət birinci növbədə əsas strateji əhəmiyyətli , cəmiyyətin və fərdin sosial ideallarına uyğun olan və onları əks etdirən dəyərlərdən getməlidir. Cari və qısamüddətli dəyərlərin əsas götrülməsi məqbul deyildir.

Müasir dövrdə sosial elmin rolunun artması, onun hər bir insanın və bütövlükdə cəmiyyətin həyatına nüfuz etməsi meyli özünü göstərir. Lakin unudulmamalıdır ki, həqiqi elm təkcə neytral xaraketli obyektiv təhlil etmək deyildir. Onun məzmununda həm də humanist ölçülərə və dəyərlərə geniş yer verilməlidir.

Qeyd olunmalıdır ki, sosial idrakda koqnitivlik ilə dəyərliliyin ölçülərinin qorunub saxlanılması çox vacibdir. Unudulmamalıdır ki, burada dəyər həddən artıq yer tutursa, o obyektiv həqiqətin aşkara çıxarılmasına əngəl törədir, sosial bilikdə konyukturacılığa və manipulyaysiyaya gətirib çıxarır. Dəyərlər və onların əsasında qiymətləndirmənin adekvat olmadığı hallarda siyasi motivlər və ideoloji təsəvvürlər əsas götürülür. Bu isə elmi obyektivliyə zidd olub,

subyektivizmə, saxtakarlığa, yanlışlıqlara və yalana yol açır.

Müasir sosial idrak konsepsiyası subyekt-dəyərləndirici tərəfi elmi yaradıcılığın çox mühüm və ayrılmaz tərkib hissəsi hesab edir. Onun müsbət potensialından daha dolğun və ardıcıl istifadə olunması zərurətini irəli sürür. Bunu sosial reallığın müvafiq nəzəri modelini yaratmaq ehtiyacı tələb edir.

## ƏDƏBİYYAT


1. Алексеев П.В., Панин А.В. Философия. М.: Проспект, 1997, 568с.
2. Алексеев П.В., Социальная философия. М.: Проспект, 2005, 256 с.
3. Введение в философию (Авт. колл. Фролов И.Т. и др.) М.: Республика, 2012, 654 с.
4. Дубровский Д.И. Проблема добродеятельного обмана. Кант и современность (Вопросы философии) 2010, №1, с. 16-32.
5. Ильин В.В.Философия. часть II. М.: Академический проект 1999. 375 с.
6. Ильин В.В. Теория познания. Социальная эпистемология. Социалогия знания. М.: Академический проек, 2014, 204с.
7. Коршунов А.М. Диалектика субъекта и объекта в познании. М.: Мысль. 1982, 274 с.
8. Лазарев В.Ф., Лебедев С.А. Проблемы истины в социально-гуманитарных науках Интервальный подход. II Вопросы философии 2005, №10, с 95-102
9. Степин B.C. Наука и философия II Вопросы философии 2010, №8, с. 49-61.
10. Философия права Т.1. (Под ред. М.Н.Маргенко). М.: Проспект, 2015, 552 с.
11. Ценностные предпосылки в структуре научного познания. М.: Наука, 1990, 372с.


## О РОЛИ ЦЕННОСТЕЙ В СОЦИАЛЬНОМ ПОЗНАНИИ


З.Дж.ГАДЖИЕВ


### РЕЗЮМЕ


В статье анализируются факторы и причины, обуславливающие растущую роль ценностей в социальном познании. Выявляется их существенное влияние на все этапы социально-познавательной деятельности, подчеркивается возможности этого влияния как в позитивном, так и в негативном направлениях.

Особое внимание уделяется раскрытию конкретно исторического характера содержания влияния ценностей в зависимости от общих социальных условий эпохи, социокультурных факторов и от содержания самых ценностей. В этой связи исследуются созданные трансформационными процессами осуществляемыми в условиях национальной независимости реальные возможности для усиления положительной роли ценностей в современном социальном познании.



**Ключевые слова:** социальное познание, ценности, позитивное и негативное влияние ценностей на познавательную деятельность, изменения в роли ценностей современном социальном познании.

## THE ROLE OF VALUES IN SOCIAL COGNITION

**Z.J.HAJIYEV**

**SUMMARY**

The article analyzes the factors and the causes of the role of value in social cognition, clarifies their impact on each stage of social cognition, and emphasizes that such impact can be both positive and negative. We note that the real content of impact depends on the circumstances of a specific period, socio-cultural environment and the character of values. We also explain the possibilities of the fundamental transformation realized in the period of independence with respect to the positive impact of values on social cognition.

**Key words:** Social cognition, values, positive and negative impacts of values on social cognition, increasing impact of values on social cognition.